# ƏLİLLƏR DÜNYASI

№ 03 (39) 29 SENTYABR 2009-cu il Editorial "The World of the Disables" Müstəqil ictimai-siyasi qəzet Qəzet 2004-cü ildən çıxır




## Almaniyanın Azərbaycandakı səfiri cənab Pyer Kristofer Stankinaya

**Hörmətli cənab səfir!**

Sizi və Sizin simanızda bütün alman xalqını “3 OKTYABR- Almaniyanın Birləşməsi Günü” münasibətilə səmimi qəlbdən təbrik edirik. Alman dövlətinə və bütün alman xalqına tərəqqi, sülh və səadət arzulayırıq. İnanırıq ki, xalqlarımız arasında olan çoxəsrlik dostluq ənənələri bundan sonra da güclənəcək və daha da inkişaf edəcəkdir.

***“Beynəlxalq Əlillər Cəmiyyəti” və qəzetin Redaksiya Heyəti adından Tahir Xudiyev***

## Yüksək xidmət, layiqli qiymət

Qəzetimizi çapa hazırlanarkən redaksiyamıza sevindirici bir xəbər daxil oldu: Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə Tahir Budaqov Bakı şəhərinin Nizami rayonuna İcra Başçısı təyin olunmuşdur. Bu xəbər qəzetimizin və “Beynəlxalq Əlillər Cəmiyyəti” İB-nın üzvlərini, ümumiyyətlə bütün rayon əhalisini həddən artıq sevindirdi. Çünki, Tahir Budaqov o dövlət məmurlarındandır ki, ona etimad göstərilən bütün vəzifələrdə xalqına və millətinə ləyaqətlə xidmət etmiş, işlədiyi müddətdə insanlar arasında dərin hörmət qazanmışdır. Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini işlədiyi müddətdə o, bütün kimsəsizlərin və əlillərin həqiqi dostuna çevrilmiş, onlara qardaş olmuşdur. İnanırıq ki, Tahir müəllim Prezidentimizin bu etimadını da ləyaqətlə doğruldacaq və rayonda yığılıb qalmış ağır problemlərin həllində bütün bacarığını əsirgəməyəcək. Tahir Budaqova bu yeni, çətin və şərəfli işində uğurlar arzulayır, hər zaman onun yanında olmağa və əlimizdən gələn dəstəyi göstərməyə hazır olduğumuzu bildirirk.

***“Əlillər Dünyası”***

## BƏLƏDİYYƏLƏRDƏ ÖZBAŞINALIQ DAVAM EDİR

Son zamanlar redaksiyamıza oxucularımız tərəfindən bələdiyyələrdə baş verən özbaşınalıqlar haqqında daxil olan şikayətlərin sayı çoxalmaqdadır. Bələdiyyələr haqqında qanunun qəbul edilməsinə, dövlətimiz tərəfindən onların işinə hər cür şərait yaradılmasına baxmayaraq, bələdiyyələrdə hərc-mərclik davam edir. Respublika Baş Prokurorluğu yanında korrupsiya ilə mübarizə idarəsi tərəfindən bir neçə bələdiyyə sədrinin və üzvlərinin məsuliyyətə cəlb olunması və barələrində dələduzluq etdikləri üçün məhkəmələr tərəfindən müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzaları tətbiq edilməsi bəzi bələdiyyə sədrlərinə dərs olmur. Bir torpaq sahəsinin bir neçə nəfərə satılması, qanunsuz torpaq paylanması, müxtəlif təşkilatlara aid olan sahələrin bələdiyyəyə məxsus torpaq sahəsi kimi satılması və s. bu kimi saxtakarlıqlar bələdiyyələr tərəfindən davam etməkdədir.

"Beynəlxalq Əlillər Cəmiyyəti"nin üzvü İbrahimov Fariz İsrafil oğlu da Bələdiyyələrin belə fırıldaqçılığının qurbanlarından biridir...

**Ardı var...**

***“Əlillər Dünyası”***

## Güclülük, səbr və müdriklik simvolu Əfaryıl Paşa oğlu Hüseynov haqqında və ya bir el ağsaqqalımızın 80 illik ömür yoluna nəzər salarkən

Səh. 2-də



# Almaniya səfirinin xanımı Kanta Stankinadan növbəti xeyriyyəçilik

***Azərbaycan - Bakı Qaçış Klubunun (BQK) üzvləri tərəfindən avqustun 30-da Saray qəsəbəsindəki fiziki-əqli cəhətdən qüsurlu uşaq evi-internatın sakinlərinə böyük maddi dəstək verilmişdir.***



Yürüş iştirakçıları

### Bakı Qaçış Klubu (BQK) haqqında məlumat

BQK-nun üzvləri də eyni məqsədlə digər ölkələrdə yaradılmış klublar kimi hər bazar günü Bakı şəhəri və onun ətrafındakı müəyyən olunmuş marşrutlarda mütəmadi yürüşlər keçirirlər. Bu yürüşlər qədim ingilis idman oyunu olan “Dovşan və itlər” oyunu əsasında keçirilir. Dovşanlar marşrutu müəyyən edir, itlər isə xüsusi izlərlə qaçırlar.

Haqqında söz açdığımız QK dünyada minlərlədir və dünyanın hər bir aparıcı şəhərində mövcuddur. Bu klubların iştirakçıları dünyada XAŞERlər kimi tanınırlar. Klub nəzdindəki qruplar qeyri-rəsmidirlər. Azərbaycanda 1996-cı ildə yaradılmış Bakı Qaçış Klubunun üzvləri arasında yerli sakinlərlə yanaşı beynəlxalq təşkilatların respublikamıdakı fəal nümayəndələri də vardır. Bu yürüşlərin keçirilməsində məqsəd bir-biri ilə ünsiyyət saxlamaq, idman etmək və bu görüşlərdən məmnunluq hissi almaqdır. Avqustun 30-da keçirilən tədbir 1996-cı ildən bu günədək keçirilən 480-ci qaçış tədbiridir.



Qeyd edək ki, tədbir zamanı vəsaitin toplanmasında şəhərimizin küçələrində gəzişən vətəndaşlar da fəal iştirak etmişlər. Bu gözəl ideya Azərbaycan Beynəlxalq Qaçış Evinin Bakı Klubunun fəxri qrossmeystri Ben Xodqsona məxsusdur. Qaçış Klubu iştirakçıları hətta həmin aksiyanı maliyyələşdirmək məqsədilə də vəsait toplamışlar. Bu şouya bənzər qaçışın keçirilməsi yoldan keçən insanlar üçün böyük sevincli əyləncəyə çevrilir və vətəndaşlar məmnuniyyətlə iştirakçılara xeyriyyə məqsədilə vəsait təqdim edirlər. Doğrudan da bu il toplanmış vəsaitin böyük hissəsi ictimaiyyətin payına düşür.

Oxucularımızın diqqətinə çatdırırıq ki, Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Pyer Kristofer Stankinanın xanımı Kanta Taluktar Stankina Saray qəsəbəsində yerləşən 7 saylı internat evini himayəyə götürmüş və burada bir sıra xeyriyyə tədbirləri həyata keçirir. Bu barədə qəzetimizin ötən saylarında ətraflı məlumat vermişdik.

Qaçış Klubunun fəxri üzvü Sarita Veyd Almaniya səfirinin xanımı Kanta Stankinanın Saray qəsəbəsində yerləşən 7 saylı uşaq evini himayəyə götürüb orada xeyriyyə tədbirləri keçirdiyini Bakı Xaşərlər Qaçış Klubuna rəsmən bildirmişdir. Avqustun 30-da keçirilən yürüş zamanı əldə olunan vəsaiti Saray uşaq evinə təqdim etmək qərarına gəlmişlər. Bu vəsaiti məktəbə çatdırmaq üçün Almaniyanın Azərbaycandakı səfirinin xanımı Kanta Stankina bazar günü qaçış həvəskarları - Xaşerlərlə görüşmüşdür.Görüşdə Xanım Kantanın qızı da iştirak etmişdir.

Tədbir metronun “Gənclik” stansiyası yaxınlığında yerləşən “Makdonalds” restoranında saat 17-yə planlaşdırılmışdır. Görüş iştirakçıları arasında “Əlillər Dünyası” qəzetinin və “Beynəlxalq Əlillər Cəmiyyəti” İB-nın əməkdaşı da iştirak edirdi.



*Kanta xanım solunda qızı və nəvəsi, sağında qəzetimizin əməkdaşı*

Mərasimdə yekdilliklə qərara alındı ki, BQK tərəfindən toplanan vəsait Saray qəsəbəsindəki 7 saylı internat məktəbinə sənaye üsullu böyük paltaryuyan maşın alınmasına sərf olunsun. BQK-nın bu vacib xeyirxah niyyətindən xəbər tutan Almaniyanın Azərbaycandakı səfirliyi yığılmış vəsaiti ikiqat artırmağa qərar vermişdir. Beləliklə, toplanmış vəsait sənaye üsulu ilə paltaryuyan maşının alınmasına kifayət edəcəkdir.

Xanım Kantanın bu addımı doğrudan da əsrlər boyu bizim millətdə formalaşmış çox böyük xeyriyyəçilik ənənəsini bizlərə xatırlatdi, nəsillərin yaddaşındakı məşhur simaları - Hacı Zeynalabdin Tağıyev, Musa Nagıyev, Şəmsi Əsədullayev kimi messenatları göz önünə gətirdi. Paytaxt Bakı əhalisi gündəlik istifadə etdiyi dadlı Şollar suyuna görə bu rahatlığı təmin edənlərə Tanrıdan rəhmət diləyir. Öz xeyirxah əməlləri ilə adlarını tarixə və millətin yaddaşına yazmış Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev kimi el oğullarından nümunə götürməliyik. Öz millətimizin imkansız şəxslərinə özümüz sahib çıxmalıyıq.

***Tahir Xudiyev***

## Bu sayımızda:


Əlillər guşəsi Səh.3-də

Akademik Rafiq Əliyev: “Bu qürur hissi Vətənimdən, millətimdən, Azərbaycandan qaynaqlanırdı” Səh. 2-4-də

Ombudsman Aparatında Beynəlxalq Sülh gününə həsr edilmiş dəyirmi masa keçirilmişdir Səh.3--də

«Pulyığan» şlaqbaumu Səh.3-də

Şəhid anasının fəryadı cavabsız qaldı Səh.3-də

Həkim məsləhəti Səh.2-də